**UOT 78.03**

**NURAY BƏKTAŞİ***

# RƏQS TARİXİMİZƏ BİR NƏZƏR

*Məqalədə Azərbaycan xalqının mədəniyyət incisi olan rəqs sənətinin mənəvi inkişafından, insanların məişətindən, adət-ənənəsindən, ictimai həyat tərzindən bəhs olunur.* Həmçinin məqalədə q*ədim rəqslərimizin qayaüstü rəsmlərdəki təsviri, tarixi keçmişi, məzmun, mahiyyət və dəyəri haqqında geniş məlumat verilir. Dahi bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə ilk dəfə 1936-cı ildə Azərbaycanda mahnı və rəqs ansamblının yaradılması, ilk peşəkar rəqqas Əlibaba Abdullayevin yaradıcılığından söhbət açılır. Bunlarla yanaşı rəqslərin adlarının yaranması, onların rəngarəng olması, kişi və qadın rəqslərinin oynanılma qaydası vurğulanır. Rəqslərin toplanıb bərpa olunması, nota salınmasından da söz açılmış və nəticədə onlarla rəqs növünün qorunub saxlanılması və günümüzədək gəlib çatmısından bəhs edilmişdir.*

**Açar sözlər**: *Rəqs sənəti, xalq şənlikləri, toy mərasimləri, xalq rəqsləri, mahnı və rəqs ansamblı, kişi və qadın rəqsləri.*

Azərbaycan xalqının qədim dövrlərdən bu günə kimi geniş yayılmış və inkişaf etmiş incəsənət növlərinin incisi olan rəqs sənətində insanların ictimai həyat tərzi, dünyagörüşü, arzu və istəkləri, məhəbbət hissləri, sevinci və kədəri, müxtəlif duyğuları öz ifadəsini tapmış, onlar xalqın mədəniyyət səviyyəsinin və estetik zövqünün ayrılmaz hissəsinə çevrilmişdir. Rəqs sənəti milli-mənəvi dəyərlərin təzahür formalarından biri olaraq çoxəsrlik mədəniyyətin göstəricisidir. Rəqs dedikdə, musiqi və xoreoqrafiyanın vəhdəti nəzərdə tutulur.

Aparılan tədqiqatlardan məlumdur ki, Azərbaycan xalq rəqsləri böyük bir təkamül yolu keçmişdir. Rəqs sənətimizin tarixi zərb musiqi alətlərinin tarixindən də xeyli qədimdir. İbtidai icma quruluşunun ilk mərhələlərində xalq musiqi alətləri meydana gəlməzdən əvvəl Azərbaycan ərazisində yaşayan müxtəlif qəbilə və tayfalar uğurlu ov etdikdən sonra əllərini bir-birinə vuraraq (və yaxud ağac və daşları) ahəngdar ritmik zərblərin müşayiət ilə öz sehrli ayinlərini plastik hərəkətlərdən ibarət çeviklik, qıvraqlıq, insan gücünü nümayiş etdirən rəqslərlə həyata keçirirdilər. Bu baxımdan Gəmiqayadakı qayaüstü təsvirlər daha səciyyəvidir. Qayaüstü rəsmlər Azərbaycan xalqının zəngin incəsənət tarixi ilə yanaşı, musiqi və rəqs mədəniyyətinin inkişaf tarixini öyrənmək üçün də böyük əhəmiyyət kəsb edir. Həmin təsvirlərdən məlum olur ki, qədim əcdadlarımız ova getmək ərəfəsində ovlamaq istədikləri heyvanların rəsmlərini qayalara çəkib onun ətrafında rəqs (dini ayin) ifa edərmişlər.

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, eramızdan 2-3 min il əvvəl, tunc dövründə Azərbaycanda rəqs sənəti insanların məişətində, adət-ənənəsində müəyyən mövqe tutmuşdur. "Alimlər Bakının yaxınlığında, Qobustanda qədim rəqslərdən xəbər verən qaya təsvirlərini - rəqs edən fiqurları aşkara çıxarmışlar. Uzaq keçmişin rəssamı bu rəsm təsvirini təqribən səkkiz-on min il bundan əvvəl yaratmışdır" [3, s.5]. Qobustanda iri qaya üzərindəki Yallının təsviri də böyük maraq oyadır. Aydın olur ki, indi də xalqımızın mənəvi mədəniyyətinin incisi olan, mühafizə olunan və daim oynanılan Yallının tarixi lap qədimdir. Tədqiqat zamanı Ordubad rayonunun Nəsirvazlı kəndindən 7 km. şimal-şərqdə yerləşən Gəmiqaya adlı yerdə arxeoloq Vəli Əliyev tərəfindən aşkarlanan çox qiymətli qaya təsvirlərində bir rəqs rəsmi diqqəti cəlb edir. "Qayanın mərkəzi hissəsində od və günəş rəmzi sayılan kiçik dairə, onun ətrafında isə qollarını yuxarı qaldırıb rəqs edən insan rəsmləri verilmişdir" [2]. "Naxçıvan ərazisində tapılan, üç min ildən artıq tarixi olan boyalı qabın üzərində iki nəfərin rəqsi təsvir edilmişdir" [1, s.254]. Mingəçevir ərazisində arxeoloji qazıntılar zamanı əldə olunan və iki min ildən artıq yaşı olan bir neçə möhür və üzüyün ikisi rəqs tariximizin araşdırılması üçün də çox maraqlı

faktdır. "Yerli ustalar tərəfindən hazırlanmış dairəvi möhürün üzərində başsız insan rəqs etdiyi vəziyyətdə təsvir olunub. Üzüyün qaşında isə bir kişinin rəqsi verilmişdir. Azərbaycan ərazisində yaşamış qədim albanlara məxsus bir qabın üzərində mürəkkəb kompozisiyalı rəsm və naxışlar təsvir edilmişdir. Həmin qab üzərindəki rəsmlərdə rəqqasələr və çalğıçılar qabarıq cizgilərlə nəzərə çarpır. Eramızın IV-V əsrlərinə aid edilən bu nadir yadigar həmin dövrdə Azərbaycanda xoreoqrafiya sənətinin mövcud olduğuna və geniş şəkildə yayıldığına sübutdur" [1, s.255]. Eramızın IV-V əsrlərinə aid edilən Alban mədəniyyətinə aid mədəniyyət nümunələrində rəqs edənləri və çalğıçıları əks etdirən mürəkkəb naxışlı kompozisiyalara da təsadüf olunur. Xalqın arzu və istəkləri, inancları və dini ayinlərini yerinə yetirmək üçün yaradılan rəqslər dövrlə, zamanla bağlı səhnə sənətinə çevrilmişdir. Beləliklə bu qənaətə gəlmək olur ki, şifahi xalq ədəbiyyatın müxtəlif növləri və janrları, xüsusilə incəsənətin tərkib hissəsi olan xalq rəqsləri Azərbaycan xalq yaradıcılığından bəhrələnib.

Qədim dövrlərdə rəqslər heç də tamaşa üçün nəzərdə tutulmurdu. Buna görə də rəqs edənlər və tamaşaçılar bölgüsü yox idi. Rəqslər hər bir mərasimin vacib elementi idi. Ovun, döyüşün uğurlu olmasını arzulayan, fövqəltəbii qüvvələrə səcdə edən hər kəs özünün münasibətini məhz mərasim rəqsində nümayiş etdirirdi. Bu folklor nümunələri sonradan peşəkar rəqs sənətinin meydana çıxmasına zəmin yaratmış və onun daha da inkişaf etməsinə səbəb olmuşdur. Rəqslərin qədimliyi musiqi dilində də özünü büruzə verir. Qədim dövrlərdə sadə quruluşa malik olan, zaman keçdikcə mürəkkəbləşən rəqs musiqisi müəyyən mənada xalqın musiqi təfəkkürünün təkamülünü əks etdirir. Bu qədim sənətdə insanların yaranışdan başlayaraq təbiət hadisələrinə, dünyanın mövcudluğuna, insanlığa, dövrə, zamana, həyata münasibəti və yaşamaq uğrunda mübarizəsi də öz əksini tapmışdır.

Xalq rəqslərimiz zaman keçdikcə inkişaf etmiş, dövrə və mühitə uyğun dəyişmiş, lakin öz təravətini itirməyərək, günümüzədək gəlib çıxmışdır. Xalqın həyat və məişətinin hər bir sahəsində tətbiqini tapan xalq rəqsləri ifaçılıq sənətinin inkişafı ilə sıx bağlı olmuşdur. Xalq rəqslərinin bugünkü rəngarəngliyi və zənginliyi də ifaçılıq sənətinin yüksək səviyyəsini nümayiş etdirir.

1920-ci ildən etibarən Azərbaycan xalqının mədəni-mənəvi inkişafı üçün geniş imkanlar yarandı, incəsənətin bütün sahələrdə canlanma uğurla nəticələndi və daha geniş şəkildə təşəkkül tapdı. Dahi bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə ilk dəfə 1936-cı ildə Azərbaycanda mahnı və rəqs ansamblı yaradıldı. Üzeyir Hacıbəylinin rəhbərliyi ilə bu ansamblın yaradıcı kollektivi tez-tez Azərbaycanın rayonlarına səfər edərək həm konsertlər verir və xalq arasından rəqs materiallarını toplayırlar. Ansamblın ifasındakı rəqsləri tamaşaçılar böyük rəğbətlə qarşılayırlar. Xalq rəqslərinə böyük məhəbbətin nəticəsində klub və mədəniyyət saraylarında özfəaliyyət rəqs dərnəkləri yaradılır. "Əlbəttə, milli rəqsləri bilmədən yeni rəqs quruluşlarını yaratmaq mümkün deyildi. Milli rəqslərin yaranması və inkişafı barədə məlumat yox dərəcəsində idi. Çünki, bu barədə ətraflı mənbələr yox idi. Rəqslər haqqında məlumata müəyyən əsrlər Azərbaycanda olmuş tarixçilərin, şair və rəssamların yazılarında və miniatür rəqslərində rast gəlmək mümkündür"[3, s.3].

Milli rəqslərimizə xas olan və onu başqa xalqların rəqslərindən fərqləndirən səciyyəvi cəhətlər sözsüz ki, yox deyildir. Azərbaycanda peşəkar rəqsin təməlini Əlibaba Abdullayev qoyur. O, Azərbaycan rəqs sənətinin inkişafında, rəqslərin toplanıb bərpa olunmasında, oynanılmasında əsas rol oynayıb. Azərbaycan Dövlət Mahnı və rəqs ansamblı yaradılanda ilk peşəkar rəqqas Əlibaba Abdullayev olmuş və özündən sonra onlarla rəqs ustadı yetişdirir. Rəqsləri adətən xalq çalğı alətləri - zurnaçılar triosu (2 zurna və 1 nağara), sazəndə triosu (tar, kamança, dəf) və s. müşayiət edirdi. Əlibaba Abdullayev məktəbinin davamçıları – Azərbaycanın tanınmış rəqqasları Əminə Dilbazi, Afaq Məlikova, Roza Xəlilova, Böyükağa Məmmədov və

başqaları öz ifalarında milli rəqsin elementlərini qoruyub saxlamaqla rəqs sənətini xeyli inkişaf etdirmişlər.

Azərbaycan rəqslərinin nota salınması və nəşri 1930-cu ildə Azərbaycan Dövlət Konservatoriyasının Elmi-Tədqiqat Musiqi Kabinetinin yaradılmasından sonra həyata keçirilir. Buraya rəhbərliyi məşhur müğənni, xalq musiqisinin dərin bilicisi Bülbül edirdi. “Azərbaycan rəqs havaları” adlanan ilk toplunu 1937-ci ildə Səid Rüstəmov hazırlamış və nəşr etdirmişdir. Məcmuəyə 30 ən məşhur rəqs daxil edilmişdir ki, bu gün də həmin rəqslər öz təravətini qoruyub saxlayır” [4, s.25]. Daha sonra Tofiq Quliyev, Zakir Bağırov və Məmməd Saleh İsmayılovun not yazılarına əsasən 1951-ci ildə Azərbaycan Dövlət Musiqi Nəşriyyatı tərəfindən “Azərbaycan xalq rəqsləri” adlı toplu nəşr olunur, toplunun redaktoru və ön sözün müəllifi bəstəkar Səid Rüstəmov idi. “Bu məcmuədə döyüş ruhlu, əzəmətli, zövq oxşayan, lirik rəqs, xalqın istək və arzularını ifadə edən musiqilər toplanmış və nəsillərdən-nəsillərə keçərək xalq ruhunu oxşayan gözəl çalarlarla daha da zənginləşmişdir [5, s.10].

Xalq musiqiçilərinin Azərbaycanda yaratdıqları rəqslər mənalılığı, təsirliyi ilə zəngindir. Rəqslərdən qədim mərasimlərimiz, adət-ənənələrimiz, eyni zamanda, xalqımızın yaşayışı, mədəniyyəti, etnoqrafiyası haqqında dəyərli məlumatlar əldə etmək olar. Xalq şənliklərini, toy mərasimlərini, bayramları rəqssiz təsəvvür etmək mümkün deyildir. Söz yox ki, qədim dövrün rəqsləri yalnız mərasim xarakterli rəqslər olmuşdur. “Rəqs heç də tamaşa edilmək üçün yaradılmamışdı, əksinə hər hansı bir mərasimin vacib elementi hesab olunurdu. Uzaq keçmişdə insanlar günəşə və aya, küləyə və oda, ağaca və suya sitayiş edərdilər. Tonqallar yandırılar, mərasim mahnıları və rəqslər icra olunar, odun gücünə inanan insanlar tonqal qalayıb onun ətrafına toplanaraq mərasimə aid rəqs edərdilər. Getdikcə rəqslər məna və formaca daha yığcam şəkildə ifa olunmağa başlayır. Bu rəqslərdə müəyyən dərəcədə məişət və mərasim təsvirləri də özünü göstərirdi. Bəhs etdiyimiz dövrlərdə rəqslər sənət ustalığı səviyyəsində deyildi. Onlar xeyli müddət sonra, tədricən, öz dini mərasim xarakterini və ibadət mənzərəsini dəyişərək sənət tərzinə düşməyə başlayır. Rəqslərin adlarının yaranma tarixçəsi də maraqlıdır. Rəqs adlarının çox az bir hissəsi təsadüfi adlar olduğu halda, əksər hissəsi, müəyyən bir anlayış yaradır, nəyəsə, kiməsə həsr olunurdu. Bu həsr edilmələr, əvvələn, təbiətə, güllərə, çiçəklərə və s. aid idi” [6, s. 21-25]. Müəyyən yerlərə: dağlara, dərələrə, kəndlərə, şəhərlərə həsr olunan rəqs adları da az deyildir. “Asta Qarabağı”, “Ağır Qaradağı”, “Qazağı”, “Qaytağı”, “Dəsmalı”, “İnnabı”, “Hey-vagülü”, “Darçını”, “Alça gülü”, “Asma-kəsmə”, “Vağzalı”, “Brilyant”, “Abayı”, “Avarı”, “Yallı” və s. kimi məşhur xalq rəqslərimiz mövcuddur.

Azərbaycanın istedadlı rəqqasları əsrlərlə milli rəqslərimizi yaşadıb və təbliğ ediblər. Yüzillər boyu xalq arasında yaşayan, ən çox el şənliklərində, toylarda yaşadılan bu rəqslər yüksək səviyyədə inkişaf etdiyindən saraylarda da oynanılmış, inkişaf etmiş və nəticədə onlarla rəqs növü qorunub saxlanılmış, günümüzədək gəlib çatmışdır. “Böyük Azərbaycan şairi Nizami Gəncəvi əsərlərində saray rəqslərindən bəhs etmiş, ədəbiyyatda “rəqs” sözünü də ilk dəfə Ustad şair işlətmişdir. Nizami öz qiymətli sətirlərində oyunun necə rəqsə keçdiyini təsvir edirdi” [3, s.7]. Deməli, hələ qədim zamanlardan oyun və rəqs bir-birinə qovuşur, vahid bir süjetdə birləşir. Buna “Yallı”, “Gülüm ey”, “Cəhribəyim” və s. kimi rəqsləri misal gətirmək olar.

Azərbaycan xalq rəqsləri olduqca rəngarəngdir. Rəqslərin ritmi, ifa tərzi, musiqi müşayiəti və mövzusu bir neçə qrupa bölünür: Mərasim (toy, bayram, siyasi-imənəvi həyatla bağlı: “Kos-Kosa”, “Vağzalı”, “Ekspress”), məişət (uşaqlar üçün, lirik, əşyalarla rəqs, təbiətə həsr olunmuş, məzəli, satirik, etiraz rəqsləri: “Bənövşə”, “Nəlbəki”, “Turacı”, “Şalaxo”), əmək (əkin-biçin, bağçılıqla bağlı: “Araba”, “Cütcü”), hərbi-qəhrəmanlıq, idman (“Misri”, “Koroğlu”, “Qoç Əli”, “Beşatılan”), coğrafi adları əks etdirən (“Aşqabadı”, “Dərbəndi”), hansısa şəxslərin tanınmış rəqsləri (“Gülgəz”, “Gülüstanı”, “Arazı”), rəqəmlərlə adlandırılmış (“Yüz bir”, “On dörd”, “Altı

nömrə") rəqslər və s. Bundan yanaşı, müxtəlif xarakterə malik ayrı-ayrılıqda kişi və qadınların tək, qoşa, kütləvi milli rəqsləri, habelə oynaq mahnı ilə müşayiət olunan kişi -("Qazağı", "Qaytağı", "Xançobanı") və qadın-("Vağzalı", "Nəlbəki", "Ceyranı", "Turacı", "İnnabi") rəqslər də az deyildir. Kişilərin ifaları üçün nəzərdə tutulmuş milli rəqslər əsasən oyun tamaşa xarakteri daşıyır. Bu milli rəqslərin əksəriyyəti kişilərin güc və şücaətini göstərmək üçün ifa olunur. Qadın rəqslərində isə ən çox zəriflik nümayiş etdirilir.

Müasir dövrdə yeni-yeni rəqslərin yaranması, qədim rəqslərin yeni variantlarının aşkar edilərək üzə çıxarılması rəqs sənətimizin inkişafına güclü təsir göstərmişdir. Xalq və peşəkar ifaçıların yaradıcılıq məhsulu olan milli xalq rəqsləri Azərbaycan milli musiqi sənətimizdə özünəməxsus yer tutmaqla, milli xalq rəqslərimizin peşəkarlıq səviyyəsinin daha da yüksəldiyini təsdir edir.

## ƏDƏBİYYAT

1. Bülbül. Seçilmiş məqalə və məruzələri. Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, 1968, 277 s.
2. Əliyev V. Gəmiqaya rəsmləri. "Ədəbiyyat və incəsənət" qəzeti, 2 avqust 1969-cu il.
3. Həsənov K. Qədim Azərbaycan xalq rəqsləri. Bakı: İşıq, 1983, 60 s.
4. Rüstəmov S. Azərbaycan rəqs havaları. Bakı: Azərnəşr, 1937, 30 s.
5. Rüstəmov S. Azərbaycan xalq rəqsləri. Bakı: Azərbaycan Dövlət Musiqi nəşriyyatı, 1951, 21 s.
6. Sarıyeva İ. Milli rəqslər mədəniyyətimizin vacib qolu kimi. Bakı xəbər,10 aprel 2015-ci il.

***AMEA Naxçıvan Bölməsinin doktorantı***
***E-mail: bektashi.nuray@gmail.com***

**Nuray Bektashi**

## A LOOK AT OUR DANCE HISTORY

The article discusses the spiritual development of the art of dance, which is the pearl of culture of the Azerbaijani people, people's lives, traditions and public life. The article also provides detailed information about the description of our ancient dances in rock paintings, their historical past, content, essence and value. The creation of a song and dance ensemble in Azerbaijan in 1936 on the initiative of the great composer Uzeyir Hajibeyli, we are talking about the work of the first professional dancer Alibaba Abdullayev. In addition, the origin of the names of the dances, their colorful, the order of performance of men's and women's dances are emphasized. There was also talk about the collection and restoration of dances, the recording of notes, and as a result, about the preservation of dozens of types of dances and their survival to this day.

**Keywords:** *Dance art, folk festivals, wedding ceremonies, folk dances, song and dance ensemble, men's and women's dances.*

**Нурай Бекташи**

## ВЗГЛЯД НА ИСТОРИЮ НАШЕГО ТАНЦА

В статье рассматривается духовное развитие танцевального искусства, являющегося жемчужиной культуры азербайджанского народа, быт, традиции и общественная жизнь людей. Также в статье дается подробная информация об изображении наших древних танцев на наскальных рисунках, их историческом прошлом, содержании, сущности и ценности. Речь идет о создании в 1936 году по инициативе великого композитора Узеира Гаджибейли ансамбля песни и танца в Азербайджане, о творчестве первого профессионального танцора Алибабы Абдуллаева. Наряду с этим подчеркивается происхождение названий танцев, их многообразие, порядок исполнения мужских и женских танцев. Также в статье рассказывается о сборе и восстановлении танцев, записи нот, в результате чего десятки видов танцев сохранились и дошли до наших дней.

**Ключевые слова:** *танцевальное искусство, народные гуляния, свадебные обряды, народные танцы, ансамбль песни и пляски, мужские и женские танцы.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 05.01.2021**
**Son variant: 24.02.2021**